**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN BƏSTƏKARLARININ FLEYTA ÜÇÜN YAZILAN ƏSƏRLƏRİNİN SPESİFİK İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **İqbal Qardaşxan oğlu Orucov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor **Elnarə Rəhimağa qızı Dadaşova** |
| Elmi məsləhətçi: | Xalq artisti, professor **Yusif Yevgeni oğlu Axundzadə** |
| Rəsmi opponentlər: | sənətşünaslıq üzrə elmlər doktoru, professor **Cəmilə İsmayıl qızı Həsənova** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru **Samir Əli oğlu Mirzəyev** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru **Kəmalə Ələşrəf qızı Atakişiyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | Xalq artisti, professor **Fərhad Şəmsi oğlu Bədəlbəyli** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **Leyla Ramiz qızı Zöhrabova** |
| Elmi seminarın sədri: ______________ | sənətşünaslıq üzrə elmlər doktoru, professor **İmruz Məmməd Sadıx qızı Əfəndiyeva** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli bəstəkar yaradıcılığında Avropa musiqi alətlərinin mövqeyi ilk növbədə bu alətlər üçün yaranan əsərlərlə müəyyən olunmaqla yanaşı, həmin alətlərdə ifaçılıq mədəniyyətinin yüksəlməsi də mühüm şərtlərdən biridir. Azərbaycanda Avropa musiqi alətlərində ifaçılıq sənəti XX əsrin əvvəllərində musiqi təhsilinin qurulması ilə başlasa da, onun tarixi daha qədimdir.

Avropa musiqi alətləri sırasında yer alan fleyta aləti nəfəsli alətlərin ən qədim növlərindən biri hesab olunur. Nəfəsli alətlər demək olar bütün dünya xalqlarının mədəniyyətində mövcud olmuş, taxta və mis borulu, tək və ya ikili, üçlü musiqi alətləri fleytanın sələfi kimi qəbul edilmişdir. Bu alətlər tarix boyu çoxsaylı təkmilləşmələrə məruz qalaraq müasir fleytanın formalaşmasına səbəb olmuşdur. Fleyta alətinin bəstəkar yaradıcılığında yer tutması XVI-XVII əsrlərdə daha geniş vüsət almışdır. Çünki məhz bu dövrdən başlayaraq alət üzərində geniş təkmilləşmə işləri aparılmış, bədii və texniki imkanları inkişaf etdirilmişdir. Bu proseslər həm bəstəkar yaradıcılığına, həm də ifaçılıq sənətinə öz təsirini göstərmişdir. Alətin ifaçılıq imkanları genişləndikcə, onun üçün yazılan əsərlərin də bədii mahiyyəti dəyişmiş, yeni sərhədləri kəşf etməyə başlamışdır. Bu proses müasir dövrdə də yüksələn istiqamətdə davam edir.

Milli musiqi sənətində fleyta ifaçılığı yüksək peşəkarlıq nümayiş etdirən sahələrdən biri kimi diqqət mərkəzindədir. Vətənimizdə bu alətin peşəkar ifaçıları, öz ənənələrinə sahib məktəbi formalaşmışdır. Bakı Musiqi Akademiyasında XX əsrin 30-cu illərindən fəaliyyət göstərən "Nəfəs və zərb alətləri" kafedrası peşəkar professor müəllim heyəti ilə fleyta ifaçılığının müasir musiqi mədəniyyətinin tələblərinə cavab verən pilləyə yüksəlməsində səylə çalışmaqda davam edir. İfaçılıq sənətinin praktik cəhətdən inkişafı pedaqoji fəaliyyətin təşkili ilə sıx əlaqədardır. Bununla yanaşı ifaçılıq sənətinin inkişafında mühüm mərhələ alətşünaslıq, ifaçılıq tarixi kimi sahələrin öyrənilməsi ilə də səciyyəvidir. Musiqi sənəti, bəstəkarlıq yaradıcılığı inkişaf etdikcə musiqi aləti ustalarının, eləcə də ifaçıların

qarşısında yeni sərhədlər açılır. Musiqi aləti ustaları alətin inkişafı istiqamətində çalışırsa, ifaçılar yeni ifaçılıq üsullarını əxz etmək istiqamətində öz sənətlərini kamilləşdirməyə davam edir.

İnstrumental ifaçılığın tədqiqat obyekti kimi öyrənilməsi bu prosesin sürətlənməsi baxımından bir təkan rolunu oynamış olur. İfaçılıq sənəti daim yenilənən və inkişaf edən sahə olduğuna görə, onun tədqiqi müasir musiqişünaslığın aktual problemlərindən biri hesab olunur. Bu sahənin araşdırılmasına həsr olunmuş elmi tədqiqatlar həm musiqi alətinin ustaları, həm də ifaçıları üçün gərəkli elmi və metodik mənbədir. Belə mənbələrin artırılması və genişləndirilməsi isə müasir musiqişünaslığın mühüm vəzifələrindən biri hesab olunur.

Fleyta ifaçılığının araşdırılması bu sahədə yeni əsərlərin tədqiqata cəlb olunması ilə nəticələnir ki, bu da müasir musiqi repertuarının genişlənməsində mühüm rol oynayır. Həmin əsərlərdə yer alan yeni ifa üsulları, ştrixlər, alətin bədii və texniki, akustik, tembr imkanlarını ifadə edən məqamların aşkara çıxarılması isə dissertasiya işinin gənc ifaçılar üçün mühüm metodik vəsaitə çevrilməsi ilə nəticələnir ki, bu da mövzunun aktuallığını səciyyələndirən cəhətlərdən biri kimi qeyd oluna bilər. Digər tərəfdən bəstəkar yaradıcılığının tədqiqata cəlb olunması, ən müasir əsərlərin təhlili dissertasiya işinin yeni tədqiqatlar üçün perspektivlərini müəyyənləşdirir və bir daha musiqişünaslığın diqqətini bu istiqamətə yönəltmiş olur. Bütün bu səbəblər dissertasiya mövzusunun aktuallığını şərtləndirir.

İnstrumental ifaçılıq sənətinin tədqiqi milli musiqişünaslıqda iki istiqamətdə aparılmışdır. Bu istiqamətlərdən biri milli musiqi alətləri ilə bağlı araşdırmaları əhatə edir. Digər istiqamət isə Avropa musiqi alətlərində ifaçılıq sənəti ilə bağlıdır. Avropa musiqi alətlərinin milli ifaçılıq sənətində tutduğu yer əsasən iki aspektdə öyrənilmişdir. Bunlardan biri bəstəkar yaradıcılığında bu alətlər üçün yazılmış əsərlərin tədqiqi, digəri isə bu alətlərdə ifaçılıq metodikasının öyrənilməsi ilə bağlıdır. Təqdim olunan dissertasiya işində hər iki istiqamət nəzərə alındığı üçün, müraciət olunan elmi mənbələr sırasında metodik istiqamətli tədqiqatlarla yanaşı, ayrı-ayrı bəstəkarların yaradıcılığına həsr olunmuş araşdırmalar da yer almışdır.

Milli musiqişünaslıqda fleyta aləti ilə bağlı geniş və hərtərəfli araşdırmalar respublikanın əməkdar artisti, istedadlı ifaçı və pedaqoq Ələkbər İsgəndərova məxsusdur. Ə.İsgəndərov bu sahədə uzun illər tədqiqat aparmış, fleyta alətinin tarixi, quruluşu, ifaçılıq xüsusiyyətləri, milli bəstəkarlıq yaradıcılığında mövqeyi ilə bağlı iki monoqrafiya yazmışdır. Onlardan birincisi 1975-ci ildə dərc edilmiş "Флейта в творчестве Азербайджанских композиторов"[1] (Azərbaycan bəstəkarlarının yaradıcılığında fleyta aləti) adlanır. Bu kitabda müəllif fleyta alətinin yaranma və inkişaf tarixini və onun Azərbaycan bəstəkar yaradıcılığında mövqeyini araşdırır. Kitabda fleyta alətinin formalaşması və təkmilləşməsi ilə bağlı tarixi faktlar yer almış, həmçinin onun Avropa bəstəkarlarının yaradıcılığındakı yeri araşdırılmışdır. Uzun illər pedaqoji fəaliyyətlə məşğul olan müəllif kitabda fleyta ifaçılığı ilə bağlı metodik tövsiyələrə də yer vermişdir.

Növbəti monoqrafiya "Стилевые и исполнительские особенности произведений для флейты"[2] ("Fleyta üçün yazılmış əsərlərin üslub və ifaçılıq xüsusiyyətləri") (2002) daha çox metodik səciyyə daşıyır. Bu əsərdə müəllif fleyta üçün yazılmış solo əsərlərlə yanaşı, alətin simfonik orkestrdə mövqeyinə nəzər salmış, ifaçılar üçün dəyərli metodik göstərişlər vermişdir. Kitabda Azərbaycan bəstəkarlarının fleyta üçün əsərləri ifaçılıq xüsusiyyətləri baxımından təhlil edilmişdir. Dissertasiya işinə cəlb olunmuş əsərlərin təhlili zamanı müəllifin fikir və metodik göstərişlərinə xüsusi yer verilir.

Fleyta ilə bağlı məlumatlar A.Abdullayevin "Очерк истории исполнительства на духовых инструментах европейского типа"[3] ("Avropa tipli nəfəs alətlərində ifaçılıq tarixinə dair oçerk") kitabında yer almışdır. Kitabda fleyta aləti ilə bağlı məlumatın yer aldığı məqalələr və respublikanın fleyta ifaçıları haqqında qısa avtobiorafik informasiya toplanmışdır.

---

[1] Искендеров, А.М. Флейта в творчестве Азербайджанских композиторов / А.М.Искендеров. – Баку: Ишыг, – 1975. – 100 с.

[2] Искендеров, А.М. Стилевые и исполнительские особенности произведений для флейты / А.М.Искендеров. – Баку: Адилоглы, – 2002. – 194 с.

[3] Абдуллаев, А.Д. Очерк истории исполнительства на духовых инструментах европейского типа / – Баку: Адилоглы, – 2003. – 204 с.

Dissertasiya işinin araşdırılmasında bir sıra Avropa və rus alimlərinin də əsərlərinə istinad olunmuşdur. Bu sırada orkestrləşmə, alətşünaslıq və sırf fleyta alətinin tarixi, quruluşu və ifaçılıq məsələləri ilə bağlı elmi mənbələr yer almışdır. Fleyta ilə bağlı geniş məlumat Д.R.Рогаль-Левицкий "Современный оркестр"[4] (Müasir orkestr) və Н.А.Римский-Корсаков "Основы оркестровки"[5] (Orkestrləşdirmənin əsasları), eləcə də В.И.Кожухарь "Инструментоведение. Симфонический и духовой оркестры"[6] ("Alətşünaslıq. Simfonik və nəfəs alətləri orkestri") kitabında verilir. Müəlliflər alətin tarixi, quruluşu, diapazonu, ifaçılıq üsulları və s. ilə bağlı gərəkli informasiya verməklə yanaşı, orkestr tərkibində tutduğu mövqeyi araşdırmışlar.

Fleyta ifaçılığı ilə bağlı metodik yönümlü mənbə kimi О.И.Танцов "Новые приемы игры на флейте"[7] ("Fleytada yeni ifa üsulları") göstərmək olar. Burada fleyta alətində müasir dövrdə yeni ifa üsulları ilə bağlı məlumat və metodik tövsiyələr verilir. Belə mənbələrdən biri kimi И.А.Мутузкин "Экспериментальная флейта в музыке XX века"[8] ("XX əsrin musiqisində eksperimental fleyta") mövzusunda dissertasiyasını göstərmək olar. Müəllif fleyta alətinin müasir musiqidə mövqeyini üzə çıxarmış, müasir əsərlərdə fleyta ifaçılığı ilə bağlı yeni tendensiyaları, ifaçılıq sənətinin inkişafında yeni mərhələni işıqlandırmışdır.

Fleyta üçün yazılmış solo və ansambl əsərlərinin təhlilində bir sıra musiqişünasların, o cümlədən L.Mazel, İ.Sposobin, Y.Xolopov, A.Sokolov, İ.Kuznetsov, S.Koqoutek kimi alimlərin musiqi əsərlərinin təhlili ilə bağlı elmi konsepsiyalarına istinad edilmişdir.

---

[4] Рогаль-Левицкий, Д.Р. Современный оркестр / Д.Р.Рогаль-Левицкий. – Москва: Гос.Муз.Издательство, – 1 том, – 1953. – 481 с.

[5] Римский-Корсаков, Н.А. Основы оркестровки / Н.А.Римский-Корсаков. – Москва: Гос.муз.издательство, – 1946. – 122 с.

[6] Кожухарь, В.И. Инструментоведение. Симфонический и духовые оркестры. Учебные пособие / В.И.Кожухарь. – Москва: Планета музыки, – 2009. – 320 с.

[7] Новые проблемы игры на флейте / Составитель О.И.Танцов. – Москва: Научно-изд.центр Мос.консерватория, – 2011. – 80 с.

[8] Мутузкин, И.А. Экспериментальная флейта в музыке XX века: / автореферат дис. по искусствоведению / – Нижний-Новгород, 2009. – 24 с.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın **obyektini** fleyta ifaçılığının inkişaf istiqamətləri və Azərbaycan bəstəkar yaradıcılığında təcəssümü, **predmetini** isə fleyta üçün yazılmış əsərlər, simfoniyalar, xalq musiqi janrları və bəstəkar əsərləri əsasında işləmələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycanda fleyta ifaçılığınıninkişaf istiqamətlərini müəyyənləşdrimək, bəstəkar yaradıcılığında fleyta üçün nəzərdə tutulan əsərlərin təhlilini apararaq bu inkişafın əsas təkan nöqtələrini aşkara çıxarmaqdan ibarətdir. Bu məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

– Fleyta alətinin tarixini, təkmilləşmə və bərpa mərhələlərini araşdıran elmi ədəbiyyatı işıqlandırmaq;

– Fleyta alətinin Avropa və rus bəstəkarlarının yaradıcılığında tutduğu mövqeyə nəzər salmaq və onun müasir təmayüllərini aşkara çıxarmaq;

– Fleyta alətinin Azərbaycan bəstəkar yaradıcılığında yerini müəyyənləşdirən musiqi əsərlərinə nəzər salmaq;

– Fleyta üçün nəzərdə tutulan solo və ansambl əsərlərinin nəzəri və ifaçılıq xüsusiyyətləri baxımından təhlilini aparmaq;

– Fleyta alətinin orkestr əsərlərində roluna nəzər salmaq və nümunələr üzərində təhlillər aparmaq;

– Fleyta alətində müasir ifaçılıq meyarlarının yüksəlməsində əhəmiyyət daşıyan aparıcı faktorlara nəzər salmaq və əsas istiqamətləri müəyyənləşdirmək;

– Fleyta repertuarında müasir ifaçılıq mədəniyyətini formalaşdıran üsul və ştrixlərin yer aldığı əsərləri təhlilə cəlb etmək;

– Aparılan təhlillər nəticəsində əldə edilən müddəaları ümumiləşdirmək və Azərbaycanda fleyta ifaçılığının müasir tendensiyalarını müəyyən etmək.

**Tədqiqat metodları.** Dissertasiya işində fleyta sənətinin tarixinə və müxtəlif inkişaf mərhələlərinə nəzər salınmış, alətin bədii və texniki ifaçılıq imkanları, bəstəkar yaradıcılığında mövqeyi araşdırılmışdır. Bu baxımdan dissertasiya işində tarixi, nəzəri və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Aparılan təhlillər zamanı əsərlərin musiqi dili, forma və məzmun, faktura və struktur quruluşu, məqam-

intonasiya xüsusiyyətləri araşdırılmış, eyni zamanda hər bir əsərdə fleyta partiyasının ifaçılıq məsələlərinə nəzər salınmış, müəyyən məqamların ifası ilə bağlı metodik göstərişlər verilmişdir. Beləliklə, dissertasiya işində musiqi təhlili ilə bağlı musiqişünaslığın nəzəri konsepsiyaları, Azərbaycan və rus musiqişünaslığının elmi tədqiqatları əsas istinad mənbəyi kimi istifadə olunmuşdur.

Milli və xarici musiqişünalıq tədqiqatlarında yer alan elmi müddəalar, o cümlədən Ü.Hacıbəyli, Ə.Bədəlbəyli, S.Abdullayeva, R.Zöhrabov, Ə.İskəndərov, eləcə də L.Mazel, İ.Sposobin, E.Alekseyev, V.Belyayev, V.Vinoqradov, Y.Xolopov, A.Sokolov, İ.Kuznetsov, S.Koqoutek və başqalarının elmi konsepsiyalarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Tədqiqat zamanı aparılan araşdırmalar nəticəsində bir sıra müddəalar müdafiəyə çıxarılmışdır:

– Fleyta aləti öz mövqeyini həm ifaçılıq sənətində, həm də bəstəkar yaradıcılığında qoruyub saxlayaraq müasir mərhələyə qədəm qoymuşdur;

– Fleyta aləti üçün yazılan əsərlər daha çox miniatür janrda təmsil olunur;

– Fleytanın ansambl daxilində tətbiqi həm böyük simfonik janrlarda, həm də müstəqil ansambl əsərlərində müxtəlif tərkiblərlə səciyyəvidir;

– Fleyta aləti üçün əsər yazmaq müasir bəstəkarların maraq dairəsində olmaqla yanaşı, yeni ifaçılıq üsullarının, müxtəlif qeyri-ənənəvi ştrix və nüansların tətbiqi ilə də səciyyəvidir ki, bu da öz təsirini bilavasitə ifaçılıq sənətinə də göstərməkdədir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin mövzusu Azərbaycanda fleyta ifaçılığının keçdiyi yolu, inkişaf istiqamətlərini araşdırmaq və onun təkmilləşməsində bəstəkar yaradıcılığının əhəmiyyətini müəyyənləşdirməyə həsr olunmuşdur. Fleyta aləti və ifaçılıq mədəniyyətinin formalaşması ilə bağlı milli musiqişünaslıqda araşdırmalar aparılmış, bu alət üçün yazılmış əsərlər müxtəlif aspektlərdən təhlilə cəlb olunmuşdur. Bu işdə pedaqoji təcrübə və bəstəkar yaradıcılığı əsas istiqamətlər kimi çıxış edir. Təqdim olunan işdə bu sənətin son dövrdə kəsb etdiyi mahiyyət işıqlandırılmış, müasir əsərlərdə alətin bədii və texniki imkanlarını təcəssüm etdirən

ifa üsulları, ştrix və nüanslarla zənginləşməsi ilə bağlıəldə olunan müasir ifaçılıq mədəniyyətinin inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.Milli bəstəkar yaradıcılığında fleyta üçün yazılmış əsərlərdən T.Bakıxanovun fleyta və orkestr üçün 1 saylı konserti, A.Məlikovun fleyta və simli orkestr üçün "Konsertino"su, "Məhəbbət əfsanəsi" və "İki qəlbin dastanı" baletlərindən nömrələrin fleyta və fortepiano üçün işləmələri, Ə.Abbasovun fleyta və fortepiano üçün "Sonatina-fantaziya"sı, F.Əmirovun fleyta və fortepiano üçün "Pyeslər silsiləsi", N.Əliverdibəyovun fleyta və fortepiano üçün "Elegiya", O.Rəcəbovun fleyta və fortepiano üçün "Skertso", T.Quliyevin fleyta və fortepiano üçün "Səhər nəğməsi", "Kiçik skertso", M.Mirzəyevin fleyta və fortepiano üçün "Gənclik rəqsi", R.Mustafayevin, Y.İmanovun fleyta və fortepiano üçün miniatürləri, Ə.İskəndərovun bir sıra işləmələri, eləcə də "İmprovizasiya", "Fantaziya", "Çoban bayatı" pyesləri, C.Abbasovun kvintet üçün beş pyes, L.Cəfərovanın triosu bilavasitə təhlilə cəlb olunmuşdur. Təhlil zamanı fleyta partiyasının ifaçılıq xüsusiyyətləri araşdırılmışdır və nəticələr əsasında əldə olunan müddəalar işin elmi yeniliyi kimi təqdim oluna bilər:

– Dissertasiya işində ilk dəfə olaraq fleyta alətinin müasir ifaçılıq mərhələsinə nəzər salınmışdır;

– Fleyta alətinin müasir Azərbaycan bəstəkar yaradıcılığında mövqeyi araşdırılmışdır;

– Dissertasiya işinə cəlb olunan əsərlərin əksər hissəsi ilk dəfə təhlil olunmuşdur;

– Fleyta ifaçılığında müasir dövrdə yaranan yeni ifaçılıq üsulları və ştrixləri haqqında informasiya və ifa tərzi ilə bağlı metodik göstərişlər verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində fleyta aləti ilə bağlı tarixi və metodoloji araşdırmalar aparılmış, bir sıra əsərlər təhlilə cəlb olunmuşdur. Bu səbəbdən tədqiqat işinin materialları orqanoloji araşdırmalar üçün elmi mənbə, eləcə də "Musiqi tarixi", "Alətşünaslıq", "Musiqi əsərlərinin təhlili" fənlərinin tədrisində istifadə oluna bilər. Təhlil zamanı fleyta ifaçılığı ilə bağlı yer alan tövsiyələr gənc ifaçılar və pedaqoqlar üçün metodik vəsait kimi əhəmiyyət daşıyır.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri və müddəaları Azərbaycan və Türkiyə kimi ölkələrin beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə dərc olunan 9 məqalədə öz əksini tapmışdır. Mövzu ilə bağlı məruzələr bir sıra yerli və beynəlxalq elmi-nəzəri konfranslarda dinlənilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, iki fəsil, beş paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 10 səhifə, 13620 işarə sayı; I fəslin birinci paraqrafı 35 səhifə, 60673 işarə sayı; ikinci paraqrafı 28 səhifə, 17184 işarə sayı; II fəslin birinci paraqrafı 33 səhifə, 41869 işarə sayı; ikinci paraqrafı 23 səhifə, 30927 işarə; üçüncü paraqrafı 27 səhifə, 36454 işarə; Nəticə bölməsi 5 səhifə, 7805 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 10 səhifə, 15221 işarə sayı həcmindədir. Dissertasiya işinin ümumi həcmi 172 səhifə və 223800 (istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla) işarə sayı həcmindədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın I fəsli "**Azərbaycan professional musiqisində fleyta alətinin rolu"** adlanır. Bu fəsil iki paraqraf ibarətdir. I paraqraf **1.1. "Fleyta aləti solo və ansambl əsərlərinin tərkibində"** adlanır. Burada fleyta aləti haqqında tarixi məlumat, alətin yaranma və inkişaf mərhələləri haqqında məlumat yer alır. Fleyta aləti qədim alətlər sırasında ən başlıca yerlərdən birini tutur. Onun tembr rəngarəngliyi, ifadəli səs ahəngi nəfəsli alətlər sırasında ən cazibədar və praktik əhəmiyyətə malik olmasına gətirib çıxarmışdır.

Bu paraqrafda Azərbaycan fleyta ifaçılıq sənətinin tarixinə nəzər salınmış və parlaq simaları haqqında məlumat verilmişdir. O

cümlədən, Q.Mədətov, İ.Konoplyov, P.Zilberman, R.Pivovarov, Ş.Mikeladze, Ə.İskəndərov, Q.Axundov, M.İsazadə, R.Babayev, T.Hacıyev, M.Ağamalızadə, eləcə də müasir fleyta ifaçıları O.Zeynallı, N.Salmanov, N.Məmmədov kimi musiqiçilərin yaradıcılığına nəzər salınır.

Qeyd etmək lazımdır ki, fleyta alətinin professional tədrisi Azərbaycan Dövlət Konservatoriyasının yarandığı ilk ildən aparılmışdır[9]. Həmin vaxt fleyta alətinin tədrisi Q.Y.Mədətova tapşırılmışdı. "Azərbaycan Dövlət Konservatoriyasının fleyta sinfinin təməlini qoyan və təbliğ edən, Azərbaycanın görkəmli musiqiçisi və pedaqoqu Q.Y.Mədətov olub"[10]. 1919-cu ildə Moskva konservatoriyasını bitirən Mədətov fleyta sinfinin ilk müəllimi olmaqla yanaşı, 1937-1944-cü illərdə Tiflis Filarmoniyasının Simfonik Orkestrinin solisti və Konservatoriyada müəllim, 1944-51-ci illərdə Ümumittifaq Televiziya və Radiosunun Böyük Simfonik Orkestrinin solisti və eyni yerdəki musiqi kollektivlərinin direktoru, habelə sonradan Musiqili Radio Verilişləri İdarəsinin rəis müavini olmuşdur. 1940-cı ildən sonra həyat və fəaliyyətini Moskvada davam etdirmiş istedadlı fleyta ifaçısı və peşəkar müəllim Mədətov Azərbaycanda bu sənətin möhkəm təməllər üzərində formalaşmasında böyük rolu olmuşdur.

1934-cü ildən İ.P.Konoplyov nəfəs alətləri kafedrasında fleyta sinfi üzrə işə başlayır. 1922-ci ildə Moskva konservatoriyasını bitirdikdən sonra, istedadlı ifaçı bir çox mötəbər orkestrlərdə, o cümlədən 1917-27-ci illərdə Böyük Teatrın Simfonik Orkestrində, 1927-34-cü illərdə Moskva Mobil Opera Teatrının Simfonik Orkestrində, 1934-36-cı illərdə Sverdlovsk Opera Teatrının simfonik orkestrində, 1936-45-ci illərdə Bakı Opera Teatrının Simfonik Orkestrində solist kimi çalışmışdır. Azərbaycanda həm pedaqoq kimi, həm də fleyta ifaçısı kimi tanınmış İ.P.Konoplyov bu sənətin

---

[9] Азербайджанская Государственная Консерватория имени Узеира Гаджибекова / Сос.Э.Г.Абасова, Д.Х.Данилов, Л.В.Карагичева, К.К.Сафар-Алиева. – Баку: Азернешр, – 1972. – s.29

[10] Axundzadə, Y.Y. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fleyta sinfinin tarixindən / – Bakı: Konservatoriya, – 2013. – № 2, – s. 98.

inkişafında parlaq iz qoymuş musiqiçilərdən hesab olunur[11].

Fleyta sinfinin peşəkar ifaçılar yetişdirməsində Q.Y.Mədətovun tələbələrinin, o cümlədən onun sinfini bitirmiş və bu təhsil ocağında pedaqoq kimi fəaliyyət göstərən P.Zilberman, R.Pivovarov, Ş.Mikeladze, Ə.İskəndərov, Q.Axundov, M.İsazadə kimi musiqiçilərin adını qeyd etmək lazımdır. P.X.Zilberman 1931-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş, eyni zamanda 1918-23-cü illərdə Odessa Opera Teatrının simfonik orkestrinin artisti, 1923-29-cu illərdə Bakıda Rus Dram Teatrının orkestrinin artisti, 1929-47-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri İdarəsi simfonik orkestrinin solisti, 1941-47-ci illərdə Azərbaycan Dövlət Filarmoniyası Simfonik Orkestrinin solisti olmuşdur[12].

XX əsrin 50-ci illərində fleyta ifaçılıq sənətinə gələn və bu sənətin inkişafında əsaslı işlər görmüş, özündən sonra onlarla peşəkar ifaçı nəslinin yetişməsində əvəzsiz xidmətlər göstərmiş Ələkbər İskəndərovun yaradıcılığı və pedaqoji fəaliyyəti qeyd edilməlidir. İfaçılıq və pedaqoji fəaliyyətlə yanaşı, Ə.İskəndərov bu sahədə ilk elmi tədqiqatın müəllifi kimi də tanınmışdır. Ə.İskəndərovun musiqi ictimai fəaliyyəti də bir çox sahələri əhatə etmiş, o cümlədən konservatoriyanın respublikada və xaricdə çıxış edən instrumental ansamblına rəhbərlik etmiş, Azərbaycan bəstəkarlarının bir sıra əsərlərini televiziya və radioda lentə almışdır. O, Ümumittifaq İfaçılar Müsabiqəsinin, eləcə də Zaqafqaziya müsabiqələrinin, festivalının, nəfəs alətləri üzrə ifaçıların Respublika müsabiqələrinin münsiflər heyətinin üzvü olmuşdur. Ə.İskəndərovun yetişdirdiyi tələbələr daha sonra ölkənin musiqi həyatında seçilən musiqiçilər kimi qiymətləndirilmişdir. Onlardan biri də Rəhim Babayev olmuşdur. Texnikumu bitirdikdən sonra, 1952-ci ildən Azərbaycan Opera və Balet Teatrının simfonik orkestrinin solisti, eyni zamanda Azərbaycan Dövlət Simfonik Orkestrinin solisti olaraq çalışmış R.Babayev 1967-1971-ci illərdə konservatoriyada, Ə.İskəndərovun sinfində təhsil almışdır.

[11] Абдуллаев, А.Д. Очерк истории исполнительства на духовых инструментах европейского типа / А.Д.Абдуллаев. – Баку: Адилоглы, – 2003. – с.98.
[12] Yenə orada, s.101.

Ələkbər İskəndərovun istedadlı tələbələrindən biri də Telman Hacıyevdir. 1960-cı illərdən həm pedaqoji, həm də ifaçılıq fəaliyyəti ilə məşğul olmuş T.Hacıyev eyni zamanda estetikaya dair əsərlərin, kamera ifaçılığına dair metodiki işlərin və s. müəllifidir. Respublika və xarici ölkərlərdə konsertlər verən T.Hacıyev Q.Qarayevin, A.Məlikovun, T.Bakıxanovun əsərlərini disklərə yazdırmış, həmçinin T.Bakıxanovun fleyta üçün iki konsertinin və üç sonatasının ilk ifaçısıdır.

Təcrübəli pedaqoq Ə.İskəndərovun sinfini bitirmiş İlçenko-Karpunina Liliya İvanovnanın, Gənc Tamaşaçılar Teatrının, Rus və Azərbaycan Dram Teatrlarının orkestrlərində çalışmış fleyta ifaçısı və pedaqoq Kurışeva Raisa Fyodorovnanın da fəaliyyətini qeyd etmək lazımdır.

Azərbaycan Dövlət Konservatoriyasının 50 illik yubileyinə həsr edilmiş kitabda nəfəs alətləri kafedrasının fəaliyyətində XX əsrin ikinci yarısından etibarən dönüş yarandığı, elmi və praktik inkişafın geniş istiqamətlər kəsb etməsi qeyd edilir[13]. Artıq 1969-cu ildə Tallində keçirilən Ümumittifaq Müsabiqəsində fleyta ifaçısı M.Ağamalızadə (Ə.İskəndərovun sinfi) xüsusi mükafatla təltif edilmişdi. XX əsrin 50-70-ci illəri isə bu kafedranın fəaliyyətində yüksəliş dövrü kimi qiymətləndirlir. Həmin dövrdə kafedranın professor-müəllim heyətinin böyük səyi və zəhməti sayəsində yetişən istedadlı ifaçılar ölkə və beynəlxalq müsabiqələrdə yüksək səviyyəli mükafat və diplomlarla təltif edilmişdi. Adları sadalanan bu istedadlı fleyta ifaçıları pedaqoji fəaliyyətlə yanaşı, həm də ölkənin peşəkar kollektivlərində, o cümlədən M.F.Axundov adına Opera və Balet Teatrının orkestrində, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının simfonik orkestrində çalışmışlar.

Fleyta ifaçılığının növbəti mərhələsi Ə.İskəndərovun sinfini müvəffəqiyyətlə bitirmiş xalq artisti, professor M.Ağamalızadə, əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor T.Hacıyev, xalq artisti, professor Y.Axundzadə, xalq artisti R.Babayev, Ç.Babayev, R.Həmidov, T.Əliyev, A.Davıdov,

---

[13] Азербайджанская Государственная Консерватория имени Узеира Гаджибекова / Сос.Э.Г.Абасова, Д.Х.Данилов, Л.В.Карагичева, К.К.Сафар-Алиева. – Баку: Азернешр, – 1972. – s.168.

T.Seyidəmirov, V.Hüseynov, O.Bağırova, R.Feyzulina, E.Mustafayev, İ.Orucov kimi musiqiçilərin pedaqoji və ifaçılıq fəaliyyəti ilə səciyyəvidir[14].

50-ci illərin istedadlı ifaçılarından biri də professor Ə.İskəndərovun sinfini bitirmiş və bu yolu uğurla davam etdirən, onlarla istedadlı fleyta ifaçısı yetişdirən zəhmətkeş pedaqoq Müzəffər Ağamalızadənin adını qeyd etmək lazımdır. M.Ağamalızadə 1958-59-cu illərdə opera teatrının simfonik orkestrinin artisti, 1961-ci ildən indiyədək fasilələrlə-Azərbaycan Dövlət Simfonik Orkestrinin solisti, bir neçə il Dövlət Kamera Orkestrinin solisti vəzifəsində çalışıb. 1975-79-cu illərdə isə Əlcəzairdə və 1992-2002-ci illərdə Türkiyədə çalışıb.

Zəngin ənənələrə malik fleyta ifaçılığının parlaq nümayəndələri həm də özlərindən sonra bu peşəkar səviyyəni saxlayan və inkişaf etdirən gənc musiqiçilər yetişdirməyə nail olmuşlar. Məsələn, M.Ağamalızadənin sinfini bitirən və Azərbaycanda müasir ifaçılıq sənətini uğurla təmsil edən gənc fleyta ifaçılarından Nicat Salmanov, Əminə Zülfüqarova, Orxan Zeynallı, Pərviz Bədəlov, Nərgiz Mütəllibova, Esmira Əhmədova, Ülviyyə Məmmədova, Yevgeniya İvanova, Nərgiz Əliyeva, Afaq Tapdıqova, Elnur Qurbanov, Ülkər Qüdrətli, Nicat Məmmədov, Mirxalid Məmmədzadə, Cəfər Novruzov kimi musiqiçilərin adını çəkə bilərik.

Azərbaycanda fleyta ifaçılığının inkişafında bəstəkar yaradıcılığının da xüsusi rolu olmuşdur. Bu bölmədə həmçinin Azərbaycan bəstəkarlarının fleyta üçün əsərlərinə nəzər salınmışdır. O cümlədən burada A.Cəfərovanın fleyta və fortepiano üçün sonata və “Sonatina”sı, K.Həsənovanın fleyta və fortepiano üçün sonatinası, Oqtay Zülfüqarovun fleyta və simfonik orkestr üçün konserti, F.Əmirovun “Xatirə” triosu, Elnarə Dadaşovanın fleyta, violonçel və fortepiano üçün Süitası, C.Abbasovun nəfəsli kvintet üçün yazdığı 5 pyes silsiləsi, Lalə Cəfərovanın fleyta və iki klarnet üçün triosu təhlil edilmişdir. Burada sadalanan əsərlərin əksər hissəsi XX əsrin 60-70-ci illərinə təsadüf edir. Lakin müasir dövrdə fleyta aləti üçün solo və ansambl əsərlərinin yazılması yenidən gündəmə gəlmiş və yeni

[14] Axundzadə, Y.Y. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fleyta sinfinin tarixindən / – Bakı: Konservatoriya, – 2013. – № 2, – s.100.

bəstəkar yazı texnikasının tətbiq olunduğu nümunələr meydana gəlmişdir. Həm yaşlı, həm də gənc nəsil bəstəkarlar ağac nəfəs alətləri üçün musiqiyə öz yaradıcılığında yer ayırmaqla yanaşı, bu əsərləri müasir ifaçılıq ənənələrinin tələbinə uyğun bəstələməyə çalışır. Xüsusilə, gənc nəslin nümayəndələri müasir ifaçılıq üsulları, ştrix və nüanslardan geniş istifadə etməklə milli musiqi mədəniyyətinin inkişafına təkan verən əsərlər yaratmağa nail olmuşlar.

Müasir dövrdə yazılmış əsərlər sırasında nəfəs alətlərinin digər nümayəndələrinə nisbətən fleyta üçün nəzərdə tutulmuş nümunələr daha geniş yer tutur. Bu da alətin bədii-texniki, tembr-akustik imkanlarından, ifaçılıq xüsusiyyətlərindən irəli gələn səbəbdir. Müasir dövrdə yazılmış əsərlər sırasında E.Dadaşovanın fleyta və fortepiano üçün “Səda”, “Muğamsayağı” miniatürləri, T.Qasımzadənin solo fleyta üçün miniatürü (“Solo for Erin Lesser”), A.Əzimovun fleyta və fortepiano üçün kiçik pyesləri, eləcə də, Y.İmanovun, İ.Abdullayevin, L.Cəfərovanın, E.Mirzəyevin, R.Ramazanovun, S.Rəhimovanın fleyta və müxtəlif tərkiblər üçün ansambl əsərləri, C.Abbasovun, X.Mizəzadənin, R.Qədimovanın, V.Allahverdiyevin ağac nəfəslilər üçün müxtəlif janrlı miniatürləri Azərbaycanda bu alətlərdə ifaçılıq mədəniyyətinin yüksəlməsinə xidmət edir.

Bu əsərlərdə bəstəkarlar müasir ifaçılıq üsulları, bəstəkar yazı yexnikası ilə yanaşı, milli musiqiyə xas muğam improvizasiya üslubundan məharətlə istifadə etmişdir. Xüsusilə, V.Allahverdiyevin, R.Qədimovanın, X.Mirzəzadənin ağac nəfəs alətləri üçün kvintetlərini, sekstet və başqa tərkibli ansmabllarını misal göstərmək olar. Solo nümunələrdə isə müəlliflər daha çox müasir ifaçılıq ştrixlərinə geniş yer vermiş, alətin bədii və texniki, akustik və tembr imkanlarını bütün zənginliyi ilə göstərməyə çalışmışlar.

İkinci paraqraf **1.2. “Simfonik orkestrin tərkibində fleyta alətinin yeri”** adlanır. Burada fleyta alətinin simfonik orkestr üçün nəzərdə tutulmuş əsərlərdə istifadə üsulları haqqında araşdırma aparılmış, V.Adıgözəlovun II və III, Arif Məlikovun VII və VIII simfoniyalarına nəzər salınmışdır. Fleytanın solo alət kimi istifadəsi ilk simfonik əsərlərdən başlanmışdır. Bu baxımdan Ə.İskəndərov A.Zeynallının “Fraqmentlər” əsərində “Şəbi-hicran” fraqmentini göstərmiş, fleytanın şəffaf və yumşaq tembr xüsusiyyətlərinin bəstəkar

tərəfindən obrazın xarakterində ifadə vasitəsi kimi tətbiq etdiyini göstərmişdir.

Fleytanın solo çıxışları nəinki simfonik əsərlərdə, musiqili səhnə janrlarında da rast gəlinir. Onu solo alət kimi ilk dəfə Ü.Hacıbəyli öz musiqili komediyalarında, "Koroğlu" operasında istifadə etmişdi: "Ü.Hacıbəyli ilk Azərbaycan bəstəkarı olaraq fleytanı solo alət kimi istifadə etmişdi. "O olmasın, bu olsun" musiqili komediyasında fleyta "Çoban bayatı"nı solo ifa edərək tütəyi təqlid edir". [15]

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Azərbaycan bəstəkarları simfonik orkestrdə müəyyən alətləri milli musiqi nümunələrinin ifasında xalq çalğı alətlərini təqlid etmək üçün istifadə etmişdir. Bu baxımdan F.Əmirovun "Kürd-Ovşarı" simfonik muğamını, S.Hacıbəyovun "Karvan" simfonik lövhəsini göstərmək olar.

Fleytanın solosu həmçinin Q.Qarayevin "Yeddi gözəl" və "İldırımlı yollarla" baletlərində müşahidə olunur. Lakin burada bəstəkar alətin tembr xüsusiyyətlərini müəyyən nömrələrin obraz-emosional aləmini yaratmaq üçün istifadə etmişdir. Bu baxımdan "Hind gözəlinin rəqsi", "Gözəllər gözəlinin rəqsi" parlaq misal ola bilər. Q.Qarayev bu alətin tembr imkanlarından "Don Kixot" simfonik qravürlərində də aktiv istifadə etmişdir. Xüsusilə onun yumşaq tembri Aldonsanın poetik və zərif obrazını xarakterizə etmək üçün tətbiq olunur.

Soltan Hacıbəyovun simfonik orkestr üçün yazdığı "Konsert"ində isə fleyta forte nüansında bayramsayağı, parlaq obraz yaratmaq üçün istifadə etmişdir. Bu əsərdə bəstəkar həmçinin alətin texniki imkanlarını da göstərməyə çalışmış və stakkato ifa üsulundan istifadə etmişdir. C.Hacıyev "Sülh uğrunda" simfonik poemasında fleytanın solosunu qaboyla vəhdət şəklində, F.Əmirov "Azərbaycan kapriççiosu"nda İngilis nəfiri, Q.Qarayevdə fleyta pikkolo, klarnet və s. ansamblında rast gəlinir. Qeyd etmək lazımdır ki, bəstəkarlar bu ikili münasibəti əsas etibarilə oktava aralığında təqdim etmişdir. Bununla belə F.Əmirovun "Kürd-Ovşarı" simfonik muğamında fleyta pikkolo solosu klarnetin üç oktavalıq aralıqda çıxış edir.

[15] Искендеров, А.М. Стилевые и исполнительские особенности произведений для флейты / А.М.Искендеров. – Баку: Адилоглы, – 2002. – 194 с.

Q.Qarayevin “Yeddi gözəl” baletindən “Çin gözəlinin rəqsi”ndə isə fleyta bas-klarnetlə ikiləşmiş şəkildə səslənir. Alətlərin unisonu isə bəstəkarın “Leyli və Məcnun” simfonik poemasında rast gəlinir. Bu üsul digər bəstəkarların simfonik əsərlərində də tez-tez təsadüf edilir.

V.Adıgözəlovun simfoniyalarında fleyta alətinə solo partiyalarla yanaşı, müxtəlif ansamblların tərkibində yer verilmişdir. Ansambl ifalarında daha çox unison partiyalar yer alsa da, təsadüfi hallarda fleyta fərqli melodik xəttə malik olur. Lakin qeyd etmək lazımdır ki, hər iki simfoniyada fleyta klarnet qədər solo mövqeyə sahib olmasa da, müəyyən epizodların obraz-emosional səciyyəsini yaratmaq üçün müəllif məhz bu alətdən istifadə edir.

A.Məlikovun simfoniyalarında fleytanın solo və ansambl tərkibində, eləcə də orkestr tuttisində iştirakını müşahidə edirik. Bəstəkar xüsusilə VIII simfoniyada orkestr nəfəs alətlərinə xas müasir ifa üsullarından istifadə etmişdir. Qeyd edə bilərik ki, fleytaya həvalə olunan solo partiyalar əsərin müəyyən kiçik parçalarında rast gəlinir. Hər iki simfoniyada aparıcı mövqe daha çox simlilərdə müşahidə olunur. Ağac nəfəs alətlər isə onlarla ansambl şəklində və ya simlilərin mövzusunu təkrar edərək səslənməyə müdaxilə edir.

Fleytanın ansambl təşkil etdiyi alətlər əsas etibarilə qaboy, klarnet və violinlərdən ibarətdir. Bəzi məqamlarda fleyta və qaboy duetinə də rast gəlinir. Ansambllarda səslənən partiyalar isə daim unison təşkil edir. Lakin bununla yanaşı bəstəkar tez-tez divizilərdən də istifadə etmişdir.

Dissertasiyanın II fəsli “**Azərbaycan bəstəkarlarının fleyta üçün yazılan əsərlərinin səciyyəvi xüsusiyyətləri”** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf **2.1. “Fleyta üçün yazılmış kiçik həcmli əsərlərin ifaçılıq xüsusiyyətləri”** adlanır. Burada Azərbaycan bəstəkarlarının fleyta və fortepiano üçün yazılmış kiçik həcmli əsərləri təhlil edilmişdir. Paraqrafda Fikrət Əmirovun 1970-ci ildə fleyta və fortepiano üçün yazdığı pyeslər, Ə.İskəndərovun “Segah”, “İmprovizasiya” və “Çoban bayatı” pyesləri, M.Mirzəyevin fleyta və fortepiano üçün nəzərdə tutulmuş “Gənclik rəqsi”, N.Əliverdibəyovun fleyta və fortepiano üçün “Elegiya”, O.Rəcəbovun fleyta və fortepiano üçün “Skertso”, R.Mustafayevin fleyta və fortepiano üçün nəzərdə tutulmuş “Vals”, T.Quliyevin

fleyta və fortepiano üçün nəzərdə tutulmuş "Kiçik skertso", Y.İmanovun fleyta və fortepiano üçün yazılmış "Elegiya", Y.Axundzadənin "Azərbaycan marşı" bilavasitə təhlil edilmişdir.

Təhlil zamanı pyeslərin forma, janr, musiqi dilinin xüsusiyyətləri ilə yanaşı əsas diqqət fleyta partiyasının ifaçılıq xüsusiyyətlərinə yönəlmişdir. Pyeslərdə ifaçı üçün xüsusi çətinlik törədən, hazırlıq tələb edən məqamlara bir o qədər də rast gəlinməmişdir. İfaçılıq tələbləri arasında mühüm şərtlərdən biri qeyd olunan dinamik nüansların dəqiqliklə yerinə yetirilməsi, düzgün applikaturanın seçilməsi və əsərin obraz-emosional əhval-ruhiyyəsindən irəli gələn ifadəli səslənməyə nail olmaqdır. Qeyd edək ki, bu pyeslər tədris proqramları üçün nəzərdə tutulmuş və gənc ifaçıların repertuarında yer alır. Təbii olaraq, bəstəkarlar az yaşlı ifaçıların texniki imkanlarını da nəzərə almış, pyeslərdə mürəkkəb passaj və frazalara yer verməmişlər. Gənc ifaçının musiqi zövqünün milli zəmində formalaşması baxımından təhlil etdiyimiz miniatürlərin əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

İkinci paraqraf **2.2. "Fleyta üçün yazılmış iri həcmli əsərlərin spesifik ifaçılıq xüsusiyyətləri"** adlanır. Burada fleyta üçün nəzərdə tutulmuş iri həcmli əsərlər sırasında yer alan T.Bakıxanovun fleyta və orkestr üçün 1 saylı konserti, A.Məlikovun fleyta və simli orkestr üçün "Konsertino", Ə.Abbasovun fleyta və fortepiano üçün "Sonatina-fantaziya", Ə.İskəndərovun fleyta və fortepiano üçün "Fantaziya" əsərləri təhlilə cəlb edilmişdir.

Fleyta üçün iri həcmli formalara daha az rast gəlinsə də, bu alət üçün Azərbaycan bəstəkarları konsertlər də bəstələmişdir. Bu baxımdan T.Bakıxanovun yaradıcılığını xüsusi vurğulamaq olar. Bəstəkarın fleyta və orkestr üçün konsertləri ifaçılıq texnikası və bədii obraz ifadə vasitələrinin təcəssümü baxımından diqqətəlayiqdir.

İlk konsert klassik sonata-simfonik silsilənin tələblərinə cavab verən üç hissəlilik nümayiş etdirir: 1. *Allegro*; 2. *Andante sostenuto*; 3. *Allegro*. Birinci hissə - *Allegro*-sonata formasında yazılmışdır. Təhlilə cəlb etdiyimiz nümunə bəstəkar tərəfindən fleyta və fortepiano üçün köçürülmüş əlyazmadır. Bəstəkarın ikinci konserti fleyta və simli orkestr üçün nəzərdə tutulmuşdur. "T.Bakıxanovun Fleyta və kamera orkestri üçün iki saylı Konserti 1974-cü ildə Azərbaycan bəstəkarlarının V qurultayında T.Hacıyev və dirijor

N.Rzayevin rəhbərliyi ilə Dövlət Kamera Orkestri tərəfindən sənətkarlıqla ifa olunmuşdur. Bu konsert təkcə Bakıda deyil, həm də Moskvada, Novosibirskdə, Tallində, Odessada səslənmiş, mətbuatın ən müsbət rəylərini qazanmışdır”[16].

Musiqinin əksər janrlarında ustad sənətkar kimi çıxış edən A.Məlikovun kamera-instrumental musiqisi Azərbaycanda ifaçılıq sənətinin inkişaf etməsində mühüm əhəmiyyət daşımışdır. Bu baxımdan təhlilə cəlb etdiyimiz “Konsertino” fleyta ifaçılığının parlaq nümunəsi kimi qeyd olunur. Əsərin ifaçılıq baxımdan bir sıra mühüm xüsusiyyətlərini qeyd etmək lazımdır. Fleyta partiyası ilk xanələrdən *mf* nüansında həyəcanlı girişlə başlayır. *Piu mosso* tempindən bir qədər əvvəl fleyta tremolarla orkestri müşayiət edir. Bu bölmədə ikili stakkatoya rast gəlinir. Burada həmçinin alterasiyalar daha çox müşahidə olunur. Tonallığın dəyişməsindən bir xanə öncə isə, fleytanın ifasında nisbətən *ritenuto* tətbiq olunmalıdır. *A tempo*-dan başlayaraq geniş axıcı melodiya başlanır. Onun tərkibində rast gələnən forşlaqlar geniş şəkildə ifa olunmalıdır. I hissənin reprizasında köməkçi partiyanın ifasında fleytaçı nəfəs almanı gec-gec həyata keçirərək melodiyanı ifa etməlidir. Sonunda isə “re” səsində verilən trel hərəkəti tədricən artırmaqla ifa edilməlidir. Treldən sonra verilən passaj isə bütün mövzunun məntiqi davamı kimi ifa olunmalıdır. Bu tərz ifa həm də hissənin sonunda “lya” səsində baş tutmalıdır.

II hissədə xarakterik ifa tərzi kvintollar, sekstollar, septollarla bağlıdır. Bütün bunlar daha geniş şəkildə ifa tələb edir. İlk cümlədə rast gəlinən forşlaqlar da sürətli deyil, sanki not ölşüsünə daxil edərək ifa olunmalıdır. 10-cu xanədə verilən sekstolun ilk səsinə bir qədər vurğu ilə toxunmaq məqsədəuyğundur. Növbəti xanədə isə “do” səsini mümkün qədər göstərmək tövsiyə olunur. Onun ardınca gələn “sol” səsinin ifasında isə fleytaçı dinamik plana fikir verməlidir. *Rubato* ilə qeyd olunan kiçik kadensiyada isə *ad libitum* ifası daha xarakterikdir. Burada ifaçı hər kiçik motivi, frazanı daha dərindən göstərməyə çalışmalıdır.

[16] Ağamalızadə, M.S. Tofiq Bakıxanovun fleyta və kamera orkestri üçün 2 saylı konsertinin interpretasiya xüsusiyyətlərinə dair / Metodik tövsiyələr. – Bakı: – 2005. – 34 s.

III hissədə fleyta partiyasında not üzərində stakkato göstərilməsə də, ifaçı bu cür ifa etsə daha məqsədəuyğun olar. Yalnız not üzərində qeyd olunan liqa və leqatolar nəzərə alınmalıdır. 58-ci xanədə və reprizada ikili stakkato (tu-ku, tu-ku) istifadə olunmuşdur. *Moderato assai* bölümündə isə fleyta partiyası daha geniş ifa olunmalıdır.

Azərbaycan musiqi mədəniyyətində bəstəkar, dirijor, pedaqoq, tədqiqatçı, publisist və ictimai xadim kimi yer tutan Əşrəf Abbasovun yaradıcılıq irsi çoxcəhətli və rəngarəngdir. Bəstəkarın fleyta və fortepiano üçün nəzərdə tutulmuş "Sonatina-fantaziya"sı da bu qəbildəndir.

"Sonatina-fantaziya"nın musiqi məzmununa nəzər saldıqda burada muğamdan qaynaqlanan obrazlar aydın müşahidə olunur. Bəstəkar "Bayatı-Şiraz" muğamının məqam-intonasiya xüsusiyyətlərini müxtəlif şəkildə təqdim edir. Burada muğamın müxtəlif şöbələrə məxsus istinad pərdələri, motiv və kadanslar eşidilir. Fortepianonun mövqeyi daha çox müşayiətçi qismində göstərilmişdir.

Ə.İskənədərovun fleyta və fortepiano üçün "Fantaziya" əsəri Azərbaycan xalq musiqisinə əsaslanır. Fantaziyanın quruluşuna nəzər salsaq, mövzunun inkişafına və xarakter fərqinə əsaslanan iki hissəni ayırmaq mümkündür. "Fantaziya"nın birinci hissəsi lirik, ikinci hissəsi isə oynaq rəqs mövzulardan təşkil olunmuşdur. Fleytanın ifasında səslənən melodiya "Şur" intonasiyaları üzərində qurulmuşdur. Müəllif əsərin sonuna qədər bu ladın üstünlüyünü qoruyub saxlamağa çalışır.

Beləliklə, təhlil etdiyimiz hər dörd əsər fleyta repertuarının ən parlaq nümunələri olmaqla yanaşı, peşəkar ifaçıların yetişməsində mühüm əhəmiyyət kəsb edir. "Konsertino"nun hər üç hissəsində bəstəkarın lirik üslubu özünü göstərir. Bu cəhət ilk növbədə fleyta partiyasının melodik zərifliyində, alətin bədii və texniki imkanlarının təcəssümü, əsərin obraz-emosional aləmi ilə vəhdət təşkil etməsi ilə göstərir. Hər dörd əsər fleyta repertuarının zənginləşməsində, ifaçılıq məharətinin inkişafında böyük təkan verə biləcək bədii və texniki əhəmiyyətə malik nümunələr sırasındadır.

Növbəti, üçüncü paraqraf **2.3. "Fleyta üçün işləmə və köçürmələrdə alətin bədii və texniki imkanlarının tipik xüsusiyyətləri"** adlanır. Bu bölmədə fleyta və fortepiano üçün köçürmələrin təhlili aparılmış, bu miniatürlərin ifaçılıq sənətində

pedaqoji və metodik əhəmiyyəti vurğulanmışdır. Milli bəstəkar yaradıcılığında Avropa musiqi alətləri üçün əsərlərin yazılması vüsət alsa da, eyni zamanda xalq mahnı və rəqslərinin işləmələri də repertuarın zənginləşməsinə təkan verirdi. Uzun illər ərzində Azərbaycan bəstəkarlarının fleyta üçün çoxsaylı əsərləri yaransa da, işləmə və köçürmələr repertuarda yer tutmaqla yanaşı, onların sayı da eyni dərəcədə artırılmışdır. Qeyd etmək lazımdır ki, bu sahədə nəinki bəstəkarlar, pedaqoqlar da fəaliyyət göstərir. Fleyta üçün işləmə və köçürmələrin hazırlanmasında bu alətin istedadlı ifaçısı, tanınmış pedaqoq Ə.İskəndərovun xüsusi rolu olmuşdur. Onun əməyi nəticəsində Azərbaycan bəstəkarlarının opera və baletlərindən, vokal və instrumental əsərlərindən xeyli sayda köçürmələr, eləcə də xalq musiqi nümunələrinin işləmələri işıq üzü görmüşdür. Həm ifaçı, həm də pedaqoq kimi alətin bədii və texniki imkanlarına yaxşı bələd olan Ə.İskəndərov köçürdüyü hər bir nümunədə fleytanın ifaçılıq məziyyətlərini önə çıxarmağı bacarmış, eləcə də ifaçı qarşısında pedaqoji və metodik əhəmiyyət kəsb edən tapşırıqları yerinə yetirmək vəzifəsini qoymuşdur. Onun fleyta üçün köçürdüyü əsərlər milli musiqi mədəniyyətinin parlaq nümunələri olmaqla yanaşı, gənc ifaçılarının öz istedadını nümayiş etdirmək üçün hərtərəfli imkanlar yaratmışdır. Ə.İskəndərov öz istedad və bacarığını həm də xalq musiqisinin yaxşı bilicisi baxımından göstərmiş, bir sıra xalq yaradıcılığı nümunələrini fleyta üçün işləmişdir.

Bu bölmədə fleyta və fortepiano üçün köçürülmüş əsərlərdən Ə.İskəndərovun bəstəkar Mobil Əhmədovla birgə 1961-ci ildə nəşr etdirdiyi Azərbaycan xalq rəqs işləmələri məcmuəsi, A.Məlikovun "Məhəbbət əfsanəsi" baletinindən "Noktürn", "İki qəlbin dastanı" baletindən "Komdenin arzuları", İ.Məmmədovun "Tülkü və alabaş" opera-baletindən "Qurbağaların rəqsi" nömrəsi, T.Quliyevin "Kiçik vals"ı, "Səhər nəğməsi" vokal miniatürü təhlil edilmişdir. Təhlilə cəlb etdiyimiz işləmə və köçürmələrin pedaqoji və metodik baxımdan əhəmiyyəti ifaçının peşəkarlıq səviyyəsinin yüksəlməsinə xidmət etməklə yanaşı, musiqi zövqünün formalaşması baxımından da mühüm əhəmiyyət daşıyır. Məhz bu nümunələrdə fleyta ifaçısı milli musiqinin zəngin nümunələri ilə yaxından tanış olmaq imkanı əldə edir.

Pedaqoq zəhmətinin nəticəsi olaraq bu nümunələrin əksər

hissəsi məhz xalq musiqi janrlarına əsaslanmışdır. Bu baxımdan Ə.İskəndərovun xalq rəqsləri əsasında fleyta və fortepiano üçün işləmələrini göstərmək olar. Bu pyeslərdə müəllif xalq rəqsinin orijinal melodiyasını saxlamaqla ifaçı üçün çətinlik törətməyən musiqi materialı sərgiləyir. Xalq musiqi janrları üçün xarakterik olan variantlılıq, reprizlik işləmələrdə kontrastlı dinamika ilə təqdim olunaraq, yorucu təkrarçılığı aradan qaldırmış olur. İşləmə və köçürmələrin mahiyyəti həm də seçilmiş əsərlərlə bağlıdır. Azərbaycan bəstəkarlarının müxtəlif janrlı əsərlərindən edilən köçürmələrin tədris repertuarına daxil edilməsi gənc ifaçının estetik zövqünün və erudisiyasının inkişafına xidmət edir.

Milli zəmində yaranmış bütün nümunələrin daha bir məziyyəti bu əsərlərin Azərbaycandan kənarda xalq musiqimizi təbliğ etmək funksiyası daşımasıdır. Belə əsərlərin müsabiqə və festivallarda ifa olunması Azərbaycan bəstəkar musiqisinin digər xalqların ifaçıları tərəfindən tanınması və repertuarlara daxil edilməsi ilə nəticələnə bilir. Beləliklə də, Azərbaycan musiqisinin həm klassik bəstəkar yazı texnikasına, həm də Avropa musiqi alətlərində ifasının mümkünlüyünə dəlalət edir. Məhz bu məsələyə böyük önəm vermiş dahi bəstəkar Ü.Hacıbəylinin yaradıcılığı yeni nəsil bəstəkarlarla yanaşı, ifaçı nəslin də milli musiqini təbliğ etmək vəzifəsini bir daha vurğulamış olur.

Fleyta ifaçılığının müasir dövrdə əldə etdiyi nailiyyətlər bu sənətin Azərbaycanda inkişaf istiqamətini müəyyənləşdirən əsas amil kimi qeyd olunmalıdır. Fleyta ifaçılığı müasir dövrdə inkişaf etdikcə, alətin bədii, texniki, akustik, tembr və s. imkanları bəstəkarlar tərəfindən daha geniş şəkildə dəyərləndirilir. Müasir bəstəkar yaradıcılığı yeni texniki ifadə vasitələri ilə zənginləşdikcə, fleyta üçün yazılan əsərlərdə yeni ifa üsulları və ştrixlər də yer almağa başlayır. Müasir dinləyicinin zövqünü, estetik tələblərini ödəmək üçün fleyta ifaçıları bütün yeni ştrixləri, ifa üsullarını mənimsəməyə, müasir əsərlərə müraciət edərək öz ifaçılıq ustalığını daha da artırmağa çalışır.

**Nəticə** bölməsində aparılan təhlillərə yekun vurulur. Beləliklə, aparılan təhllilərə əsaslanaraq fleyta ifaçılığının müasir dövrdə əldə etdiyi nailiyyətlərin yüksələn istiqamətdə inkişaf etdiyini söyləmək mümkündür:

– xüsusilə, fleyta alətinə maraq gənc musiqi nəslində

azalmamış, əksinə bu alətin istedadlı ifaçıları yetişməkdə davam edir;

– yeni yaranan simfonik əsərlərin müasir kompozisiya xüsusiyyətləri, orkestr üslubu fleytanın bu tərkibdə mövqeyini bir qədər də möhkəmləndirmiş, onun solo alət kimi çıxışlarının müasir ifa üsulları ilə zənginləşməsinə səbəb olmuşdur;

– fleyta aləti üçün solo əsər yaratmaq müasir bəstəkarın maraq dairəsindədir və buna sübut olaraq bu alət üçün son iillərdə yaranmış maraqlı nümunələri göstərmək olar;

– fleyta üçün yazılmış əsərlər sırasında iri həcmli janrlar azlıq təşkil etsə də, bu məqam ifaçılıq mədəniyyətinin inkişafına mənfi təsir göstərməmişdir;

– fleyta üçün yazılmış miniatür janrlar xüsusilə çoxluq təşkil etməklə yanaşı, bu əsərlərdə millilik aparıcı faktora çevrilmişdir;

– fleyta repertuarının zənginləşməsində orijinal əsərlərlə yanaşı, işləmə və köçürmələr də mühüm yer tutur və bu iş müasir dövrdə əməkdar pedaqoqlar tərəfindən uğurla həyata keçirilir;

– fleyta ifaçılığının müasir səviyyədə inkişafı respublikada keçirilən müsabiqə və festivallarda çıxış edən istedadlı ifaçıları və gənc Azərbaycan bəstəkarlarının bu alət üçün nəzərdə tutulmuş yüksək səviyyəli əsərləri ilə tərənnüm olunur;

– fleyta ifaçılığına maraq yalnız praktik istiqamətdə deyil, musiqişünaslıq tədqiqatları ilə səciyyələnmiş və bu sahədə dəyərli monoqrafiyalar, elmi məqalə və metodik vəsaitlər yaranmışdır.

Bütün sadalanan fikirlər, deməyə əsas verir ki, Azərbaycanda musiqi təhsilinin müasir zəmində uğurları digər sahələrlə yanaşı, fleyta ifaçılığının peşəkar səviyyədə inkişafı ilə də parlaq təcəssüm olunur.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**


1. Orucov, İ.Q. Fikrət Əmirovun fleyta üçün yazdığı "Aşıqsayağı" pyesində aşıq sənətinin ənənəvi cəhətlərinin təzahürü / – Bakı: Musiqi dünyası, – 2012. – № 4(53), – s. 86-89.
2. Orucov, İ.Q. Fleyta üçün Azərbaycan xalq rəqslərinin işləmələri / – Bakı: Konservatoriya, – 2013. – № 1(19), – s. 123-127.
3. Orucov, İ.Q. Azərbaycan professional musiqisində fleytanın yeri / Türksoylu Xalqların Musiqi Mədəniyyətinin Tədqiqi

Problemlərine Dair XIV Uluslararası Bilimsel-Pratik Konferansının materialları, – Bakı, – 26 fevral, – 2015, – s. 72-74.
4. Orucov, İ.Q. XX əsrdə fleyta ifaçılığında yeni ifa üsulları və ştrixlər / – Bakı: Musiqi dünyası, – 2018. – № 1(74), – s. 7898-7902.
5. Orucov İ.Q. Ə.Abbasovun fleyta və fortepiano üçün "Sonatina-Fantaziya" əsərinin ifaçılıq xüsusiyyətləri / – Bakı: Harmoniya, – 2018. – № 17.
6. Orucov İ.Q. Simfonik orkestrin tərkibində fleyta alətinin yeri / "Musiqişünaslığın aktual problemləri" konfransının materialları, – Bakı, – 4-6 dekabr, – 2019, – s. 228-233.
7. Orucov İ.Q. XX yüzyıl flüt icracılığında yeni çalgı teknikleri ve yeni ses efektleri / – Türkiye: Erzincan B.Yıldırım Üniversitesi Sosyal Bilimler Entitüsü dergisi, – 2019. – № 2 (cilt 12), – s. 477-494.
8. Orucov İ.Q. Azərbaycan bəstəkarlarının ansambl əsərlərində fleytanın yeri / – Bakı: Musiqi dünyası, – 2020. – № 4(85), – s. 44-50.
9. Orucov İ.Q. Müzik Kültürü Tarihinde Nefesli Çalgılar / Uluslararası Sosyal Bilimler ve İnovasyon Kongresi materialları, – Türkiye, – 9-10 yanvar, – 2021, – s. 39-40.

Dissertasiyanın müdafiəsi 16 mart 2022-ci il tarixində saat 14:00 Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.02.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 41 367 işarə

Tiraj: 100